# Muzey mənəvi sərvətimizdir

(Əvvəli 6-cı səhifədə).

Hər il xarici turistlərin rayonumuza səyahəti ilk növbədə muzeyimizdən başlayır. Hələ təkcə ötən illərin iyul-avqust aylarında Qəbələ Beynəlxalq Musiqi Festivalında iştirak etmək üçün muzeyimizə gələn qonaqların sayı 600 nəfərə yaxın olmuşdur. İtaliya, Yunanıstan, Türkiyə, Fransa, Rusiya, Almaniya və s, dünyanın bütün ölkələrindən gələn nümayəndələr Azərbaycanın bir parçası olan Qəbələ haqqında bütün məlumatları dəqiqliklə muzeydə əldə etdikdən sonra xoş təəssuratlarla, xatirələrlə məkanı tərk edirlər.

Vaxtaşırı olaraq kütləvi tədbirlərin, tarix və ədəbiyyat dərslərinin tədrisi üçün muzeyimiz xüsusi şərait yaradır. Əyani vəsaitlərlə təmin olunan məktəblilər tarix, coğrafiya dərslərini muzeyimizdə keçirlər. İndi hər kəs belə bir tarixi və mənəvi sərvətimizi—muzeyimizi qorumalı, yaşatmalıdır. Çünki muzey tarixi xəzinəmizin açarı, keçmişimizin, bu günümüzün, gələcəyimizin varlığı deməkdir. Gəlin hamılıqla milli sərvətimiz olan muzeyimizi qoruyaq. Ona görə ki, bu gün bizə inkişaf etmiş yüksək səviyyəli, sivilizasiyalı dövlətlər sırasına yüksəlmək üçün, estetik, unikal, zəngin mədəniyyət lazımdır. Ümidvarıq ki, Beynəlxalq Muzeylər Şurası (İKOM) Azərbaycandakı 30-dək qaçqın muzeylərinin (Şuşa, Laçın, Kəlbəcər, Zəngilan və s.) doğma yurdlarında bütünlüklə bərpasını təmin edəcək.

Hər dəfə Beynəlxalq Muzeylər Günü qeyd olunarkən düşünürəm ki, muzeyimiz bir yaşını da arxada qoydu—demək tarixi bir il də qədimləşdi. Artıq 33-cü ildir ki, muzeyimiz bu bayramı təntənə ilə qeyd edir. 33 il az bir vaxit deyil. Qədim Qəbələnin 2500 illik dövrü tarixi baxımdan bizdən çox uzaqdırsa da 33 il də bizdən yavaş-yavaş uzaqlaşaraq tarixə çevrilir. Qəbələ rayon Tarix-Diyarşünaslıq muzeyinin tarixinə.

**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**

# Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günü qeyd edildi

Bu günlərdə Heydər Əliyev mərkəzində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Gününün 150-ci ildönümünə həsr edilmiş tədbir keçirildi. Tədbirdə şəhər məktəblərinin müəllimləri, ictimaiyyətin nümayəndələri, Qızıl Aypara Cəmiyyətinin könüllüləri iştirak etmişlər. Yığıncağı giriş sözü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qəbələ rayon Bölməsinin sədri Sədaqət Bayramova açdı. Sonra o, 8 may Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Gününün yaranmasının 150-ci ildönümü ilə əlaqədar çıxış etmək üçün sözü Qəbələ Qızıl Aypara Bölməsinin təlimatçısı Firəngiz Mahmudbəyliyə verdi. O, qeyd etdi ki, 1953-cü ildən bəri hər il may ayının 8-i Beyqnəlxalq Qızıl Xac və Qızıl Aypara Günü kimi qeyd olunur. Bu gün 1828-ci ilin may ayının 8-də anadan olmuş İsveçrə vətəndaşı, humanist və ictimai xadim, ilk Nobel sülh mükafatı laureatı Anri Dünamn şərəfinə təsis olunmuşdur. 1893-cü ildə Anri Dünamin təşəbbüsü ilə yaralılara yardım göstərən Beynəlxalq Komitə yaradılmışdır. Həmin komitə sonralar Beynəlxalq Qızıl Xaç Komitəsi adlandırmışdır. Bir il sonra 1864-cü ildə İsveçrədə «Birinci Cenevrə Konvensiyası», «Beynəlxalq Humanitar hüquqlarının əsasları» hazırlandı. 1949-cu ildə həmin konvensiya daha da təkmiləşdirildi və bəzi dəyişikliklər edildi. Burada xüsusi qeyd edilir ki, təcilli tibbi yardım maşınları və xəstəxanalar neytral sayılacaq, yaralılalara qayğı göçtərən mülki əhaliyə hörmət olunacaq, tibbi yardım maşınları, binalar və tibbi heyət həmişə hörmət edilən xüsusi fərqləndirici embilem olan fonda qırmızı xaç işarəsi daşıyacaq, yaralı döyüşçülərə, xəstələrə heç bir ayrıseçkilik qoyulmadan qayğı göstəriləcəkdir.



Beynəlxalq Qızıl Xac Komitəsi qərəzsiz neytral və müstəqil təşkilatdır. Onun əsas humanitar missiyası müharibə daxili zorakılıq qurbanlarının həyatını və ləyaqətini müdafiə etmək və onlara yaprdım göstərməkdir. Komitə münaqişə şəraitində həyata keçirilən beynəlxalq yardım fəaliyyətinə dəstək verir.

Beynəlxalq Qızıl Xaç Komitəsinin əsas mənbələri 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə protokollardır.

Azərbaycan Respublikası 1993-cü ilin aprel ayının 21-də Beynəlxalq Konvensiyalara qoşulmuş və bu sənədlərdən irəli gələn öhdəlikləri öz üzərinə götürmüşdür. Həmçinin 1993-cü ildə Azərbaycan Respublikası silahlı münaqişə zamanı mədəni sərvətlərin müdafiəsi haqqında konvensiyaya qoşulmuşdur.

Azərbaycanda Qızıl Aypara Cəmiyyəti 1920-ci ilin martın 10-da Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmışdır. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti Rusiya Qırmızı Xaç Komitəsinə tapşırılmışdır. Böyük Vətən müharibəsi zamanı Az. QAC ön cəbhədə böyük əhəmiyyət kəsb edən işlər görmüşdür. Cəmiyyətin şəfqət bacılarının çevikliyi və həssaslığı, yaralılara göstərdikləri fədakar və qayğıkeş xidmət ordunun qabiliyyətinin yüksəlməsinə və faşizm üzərində qələbənin əldə olunmasına mühüm töhvə vermişdir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1991-ci il noyabr ayının 5-də Milli Cəmiyyət Sovet Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri sıralarından çıxması haqqında qərar qəbul edilir. Birdən-birə öz hüquqi bazasını itirmiş cəmiyyət üçün fəaliyyət göstərmək çətin idi. Bir tərəfdən Azərbaycan Respublikası Ermənistanın işğalçı siyasətinə məruz qalmış əhalinin çoxu qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra sabitlik yaranmış və cəmiyyətimizə göstərilən qayğı sayəsində Azərbaycan Respublikasının Milli Məclisinin 25 noyabr 1994-cü il tarixli «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırmaq haqqında» Qanunu ilə cəmiyyət respublikada yeganə humanitar təşkilat kimi qeydə alındı.

2003-cü il prezident seçkilərində xalqın etimadını qazanan möhtərəm Prezident İlham Əliyevin fəaliyyətininin ilk günlərində--2004-cü il yanvar ayının 31-də Azərbaycan Qırmızı Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» imzaladığı tarixi sərəncam cəmiyyətin qarşısında yeni imkanlar açılmasına şərait yaratdı.

Bundan sonra dövlətimizə hümanitar sahədə dəstək olan Qırmızı Aypara Cəmiyyətinin fəaliyyətinə yüksək qiymət verildi.

Sonra yığıncaqda şəhər 1, 2, 4 saylı tam orta məktəblərinin müəllimləri Zibeydə Əhmədova, Könül Abdullayeva, Almaz Ağayeva və Qızıl Aypara Cəmiyyətinin könüllülərindən Aydan Hüseynzadə 8 may—Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin yaranması tarixindən və onun cəmiyyətdə rolundan danışmışlar.

Tədbiri Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Bölməsinin sədri Sədaqət Bayramova yekunlaşdırdı.

**Aslan CƏLİLOV.**
**Foto Səhrab UMUYEVİNDİR.**

# Vergi siyasəti və məktəbdə açıq dərs

Vergilər Nazirliyi 2013-cü ilin aprel-may aylarında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş tədbirlərin keçirilməsi üçün iş planı təsdiq etmişdir. Planda ərazi vergilər idarələrinin əhatə dairəsinə düşən rayonların orta məktəblərində fəaliyyət göstərən vergilər üzrə tədris-metodiki kabinetlərində «Heydər Əliyev və vergi siyasəti» mövzusunda açıq dərslər keçirilməsi qeyd olunmuşdur.

10 saylı Ərazi Vergilər İdarəsi tədbirlər planının icrasını təmin etmək məqsədilə keçiriləcək dərslərin qrafikini tərtib etmişdir. Həmin qrafikə uyğun olaraq ilk belə dərs bu yaxınlarda Vahid Qəhrəmanov adına Qəbələ şəhər 1 saylı tam orta məktəbin akt zalında 78 şagirdin iştirakı ilə keçirilmişdir. Dərsi tədris edən vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi İntiqam Hidayətzadə şagirdlərə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin, konsepsiyasının əsas konturlarının müəyyənləşdirilməsində, vergi sisteminin iqtisadi inkişafın tənzimlənməsində xüsusi əhəmiy-yətindən, ölkənin iqtisadi müstəqilliyinin təməlində öz yerini almasından, çevik dövlət tənzimlənmə mexanizminə çevrilməsi və dünya vergi sisteminə inteqrasiya imkanlarının kökündə ulu öndərimizin vaxtilə yaratdığı iqtisadi potensialın dayanmasından ətraflı məlumat verdi. Fərəhli haldır ki, şagirdlər tədrisdə yeni olan bu mövzuya böyük maraq göstərdilər və hər bir məsələni diqqətlə dinlədilər. Sonra VII «b» sinirf şagirdləri Günel Musayeva, İsmayıl Nurullayev mövzu ilə bağlı maraqlı çıxışlar etdilər.

Növbəti belə dərs İsmayıllı şəhər 5 saylı tam orta məktəbdə keçirilmişdir.

**«QƏBƏLƏ».**

# Yaz-tarla işləri davam edir

Yaz-tarla işlərinin qızğın çağıdır. Kənd əməkçiləri yaz havalarının əlverişli keçməsindən səmərəli istifadə edərək kartof, tərəvəz, qarğıdalı, çoxillik, birillik ot, bostan, günəbaxan bitkilərinin əkinlərinə start veriblər. May ayının 6-na olan məlumata görə rayon üzrə 1060 hektar sahədə kartof, 1307 hektar sahədə tərəvəz, 477 hektar sahədə qarğıdalı, 100 hektar sahədə günəbaxan, 79 hektar sahədə birillik ot və 79 hektar sahədə isə bostan bitkiləri əkilmişdir. Müqayisə göstərir ki, yazın erkən gəlişi ilə əlaqədar keçən ilin müvafiq dövrünə nisbətən bu il yazlıq bitkilər xeyli çox əkilmişdir.

Yazlıq bitkilərinin əkinində ayrı-ayrı kənd əməkçiləri və fermer təsərrüfatları fərqlənirlər. Kartof əkinində «Gilan» MMC-nin kollektivi, Vəndam qəsəbəsinin, Nohurqışlaq və Seyidqışlaq kəndlərinin, qarğıdalı əkinində Nic qəsəbəsinin və Hacıalılı kəndinin əməkçiləri irəlidə gedirlər.

Yaz-tarla işləri davam edir.

**«QƏBƏLƏ».**